**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MİQRASİYA PROSESLƏRİNİN İNZİBATİ-HÜQUQİ NİZAMLANMASI: AVROPA ÖLKƏLƏRİNİN VƏ AZƏRBAYCAN QANUNVERİCİLİYİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

İxtisas: 5614.01 – "İnzibati hüquq; maliyyə hüququ; informasiya hüququ"

Elm sahəsi: Hüquq

İddiaçı: **Elvin Elyar oğlu Əliyev**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Konstitusiya hüququ" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbərlər: hüquq elmləri doktoru, professor
**Əli Heydər oğlu Rzayev**
hüquq üzrə fəlsəfə doktoru, professor
**Cavid Sadulla oğlu Abdullayev**

Rəsmi opponentlər: hüquq elmləri doktoru, professor
**Anatolii Trofimoviç Komziuk**
hüquq elmləri doktoru, dosent
**Yuriy Pavloviç Burilo**
hüquq üzrə fəlsəfə doktoru
**Elvin Paşa oğlu Balacanov**

Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.44 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: hüquq elmləri doktoru, dosent
________________ **Turqay İmamqulu oğlu Hüseynov**

Dissertasiya şurasının
elmi katibi: hüquq üzrə fəlsəfə doktoru, dosent
________________ **Əlizadə Qurbanəli oğlu Məmmədov**

Elmi seminarın sədri: hüquq elmləri doktoru, professor
________________ **Əmir İbrahim oğlu Əliyev**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
Ministry of Science and Education of the Republic of Azerbaijan
Baku State University p.p.l.
BDU ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"14" 03 2024

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Məlumdur ki, son 10 il ərzində xüsusilə Yaxın Şərq regionunda hərbi münaqişələrin sayının və əhatə dairəsinin artması həmin bölgədən Avropaya güclü mühacir axını ilə nəticələnmişdir. Avropaya mühacir axını hələ də davam etdiyindən miqrasiya məsələləri öz aktuallığını qoruyub saxlamışdır. Bu səbəbdəndir ki, Avropa ölkələrində miqrasiya qanunvericiliyi son illərdə böyük inkişaf yolu keçmiş, müasir dövrün geosiyasi şəraitinə sürətlə uyğunlaşdırılmışdır. Həmçinin, tələbat nəticəsində Avropanın çoxsaylı ali təhsil müəssisələrində miqrasiya hüququ üzrə magistr və doktorantura proqramları yaradılmış, bu sahəyə daxil olan institutlar daha ətraflı şəkildə tədqiq olunmağa başlanmışdır. Miqrasiya prosesləri son illərdə Azərbaycanda da aktuallıq qazanmışdır, belə ki, burada ən mühüm və tarixi hadisələrdən biri məhz 19 mart 2007-ci il tarixdə isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılmasıdır[1]. Buna görə də müvafiq sahədə geniş tədqiqatlara və hüquqi tənzimlənməyə ehtiyac yaranmışdır. Həmçinin, Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, qanunvericiliyin beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, qanunların tətbiqində Azərbaycan Respublikasının milli təhlükəsizliyinin və sabit sosial-iqtisadi, demoqrafik inkişafının təmin edilməsi, miqrantların intellektual və əmək potensialından istifadə edilməsi, tənzimlənməyən miqrasiya proseslərinin neqativ təsirinin aradan qaldırılması, insan alveri də daxil olmaqla, qeyri-qanuni miqrasiyanın qarşısının alınması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 25 iyul 2006-cı il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-

[1] Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında" Fərmanı: [Elektron resurs] // 19 mart 2007-ci il tarixdə qəbul edilmişdir. – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin hüquqi aktların vahid elektron bazası.
URL: http://www.e-qanun.az/framework/12885 (son giriş 05.01.2024)

2008-ci illər)" təsdiq edilmişdir[2]. Bundan başqa, miqrasiya proseslərinin vahid və çevik prosedurlar əsasında tənzimlənməsi, sənədləşmənin sadələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Miqrasiya proseslərinin idarəolunmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" 4 mart 2009-cu il tarixli Fərman imzalanmışdır[3].

Miqrasiya sahəsində dövlət idarəetməsini effektivliyinin artırılması ilə bağlı əsas məsələlərdən biri də məhz kadr siyasətidir. Çünki qanunvericiliyin təkmilləşdirilməsi inzibati-hüquqi nizamlanma və idarəetmənin təmini üçün təkbaşına kifayət etmədiyindən normaları tətbiq edəcək şəxslərin peşəkarlığının artırılması, həmçinin, onların hüquqi statusunun müəyyən edilməsi xüsusilə əhəmiyyətlidir. Bu baxımdan 2009-cu ilin 4 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında" Əsasnamə ilə Azərbaycan Respublikasının miqrasiya orqanlarında qulluq keçmə qaydaları və şərtləri, bu orqanların işçilərinin hüquqi vəziyyətinin əsasları müəyyən edilmişdir[4].

Məsələnin Konstitusiya baxımından əhəmiyyəti Azadlıq hüququ adlanan 28-ci maddədə öz əksini tapmaqdadır. Bu maddəyə əsasən, hər kəsin azadlıq hüququ vardır və azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla

---

[2] Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramının (2006-2008-ci illər) təsdiq edilməsi haqqında" Sərəncamı: [Elektron resurs] // 25 iyul 2006-cı il tarixdə qəbul edilmişdir. – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin hüquqi aktların vahid elektron bazası.
URL: http://e-qanun.az/framework/11800 (son giriş 06.01.2024)

[3] Azərbaycan Respublikası Prezidentinin "Miqrasiya proseslərinin idarəolunmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında" Fərmanı: [Elektron resurs] // 4 mart 2009-cu il tarixdə qəbul edilmişdir. – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin hüquqi aktların vahid elektron bazası.
URL: http://e-qanun.az/framework/16401 (son giriş 05.01.2024)

[4] Azərbaycan Respublikasının "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Qanunu: [Elektron resurs] // 4 dekabr 2009-cu il tarixdə qəbul edilmişdir. – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin hüquqi aktların vahid elektron bazası.
URL: http://e-qanun.az/framework/18953 (son giriş 05.01.2024)

bilər[5]. Maddənin III hissəsində qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəsin sərbəst hərəkət edə və özünə yaşayış yeri seçə bilməsi və Azərbaycan Respublikasının ərazisindən kənara getmək hüququ vurğulanmışdır. Buradan ilkin olaraq, azadlıq hüququnun fərdin sərbəst yerdəyişməsi ilə üst-üstə düşdüyü anlaşıla bilər, lakin burada fərdin sərbəst yerdəyişmə imkanının azadlıq hüququnun tərkib hissəsi olmasına baxmayaraq onun hamısı demək deyildir[6]. 28-ci maddənin IV hissəsində isə Azərbaycan Respublikası vətəndaşlarının hər zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququ təsbit olunmuşdur.

İnzibati hüquq baxımından isə qeyd olunmalıdır ki, miqrasiya məsələlərinin tənzimlənməsi dövlət idarəetməsinin predmetinə daxil olan məsələlərdən biridir. Məhz dövlətin qanunvericilik orqanı bu sahədə müvafiq normativ-hüquqi aktları qəbul edir, icra hakimiyyəti orqanları həmin normativ-hüquqi aktlarla yanaşı özləri tərəfindən də qəbul edilən nromativ-hüquqi və digər aktların həyata keçirilməsini təmin edir, məhkəmə orqanları isə tətbiq zamanı ortaya çıxan mübahisəli məqamların həll edilməsi, həmçinin, pozulmuş insan hüquq və azadlıqlarının müdafiəsi və bərpası funksiyasını yerinə yetirir. Ancaq bütün bu qeyd edilənlərlə yanaşı, miqrasiya proseslərinin təkcə İnzibati hüquqla bağlı olduğunu demək də yanlış olardı. Hüququn digər sahələri, hətta hüquqdan başqa digər elm sahələri də öz predmetlerinə uyğun şəkildə miqrasiyanı öyrənməkdədir. Dissertasiyada bununla bağlı da araşdırma aparılmış və nəticələri əks etdirilmişdir.

Bu sahədə atılan ən vacib addımlardan biri məhz 28 fevral 2014-cü il tarixdə imzalanan Azərbaycan Respublikası ilə Avropa İttifaqı (bundan sonra Aİ) arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında Sazişdir. Bu Sazişin imzalanması qeyri-qanuni immiqrasiya ilə daha səmərəli mübarizə aparmaq məqsədilə

---

[5] Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (24 avqust 2002-ci il tarixdə olan dəyişiklik və əlavələr, 18 mart 2009-cu il tarixdə olan dəyişiklik və əlavələr, 26 sentyabr 2016-cı il tarixdə olan əlavə və dəyişikliklər). – Bakı: Hüquq Yayın Evi, – 2018, – 92 s.

[6] Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik / Z.A.Əliyev. – Bakı: Bakı Universiteti Nəşriyyatı, – 2011. – 760 s.

öz aralarında əməkdaşlığı gücləndirmək niyyəti güdür[7]. Nəhayət, 17 mart 2021-ci il tarixdə isə Dövlət Miqrasiya Xidməti ilə Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (MSİBM) arasında təşkilatın Azərbaycan Respublikasında statusuna dair Saziş imzalandı. Sənəd Azərbaycanın MSİBM və Avropa İttifaqı ilə əməkdaşlığının dərinləşməsinə töhfə verməklə yanaşı, ölkəmizin beynəlxalq yardım alətlərindən istifadə imkanlarını artırmaq baxımından mühüm əhəmiyyətə malikdir[8].

Qeyd etməliyik ki, miqrasiya prosesləri qısa zaman kəsiklərində böyük dəyişikliklərə uğraya bilir və bu baxımdan yerli və beynəlxalq səviyyədə bu transformasiyalara çevik cavab vermək iqtidarında olan mexanizmlər tətbiq edilməlidir. Hər hansı kiçik bir regionda baş verən və miqrasiya axınını şərtləndirən hadisənin baş verməsi qlobal səviyyədə öz təsirini göstərə bilir.

Mövzu Azərbaycan hüququ elmində kompleks şəkildə tədqiq olunmasa da, onun müəyyən aspektləri araşdırılmışdır. Məsələn, azərbaycanlı miqrantların Azərbaycanda qalan ailə üzvlərinin vəziyyəti ilə bağlı Beynəlxalq Miqrasiya Təşkilatı və BMT-nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, əmək miqrasiyası ilə bağlı Ə.Süleymanov, Mərkəzi və Şərqi Avropada miqrasiya məsələləri ilə bağlı A.Allahverənov, R.Əliyeva və T.Sadıqov, miqrasiya məsələlərinə aid məlumatlarla bağlı R.Əfəndiyev tədqiqatlar aparmışlar. Lakin, Azərbaycan Respublikasinda miqrasiya proseslərinin inzibati-hüquqi nizamlanması (Avropa ölkələrinin qanunvericiliyi ilə müqayisəli şəkildə) heç vaxt müstəqil kompleks monoqrafik tədqiqatın predmeti olmamışdır. Bu baxımdan dissertasiya işi yazılarkən 18 Avropa ölkəsinin, həmçinin, Avropa İttifaqının miqrasiya qanunvericiliyi və müvafiq sahədə həyata keçirdiyi idarəçilik siyasəti tədqiq olunmuşdur. Araşdırılan Avropa ölkələrinin altısı

---

[7] "Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında" Sazişin təsdiq edilməsi barədə Qanun: [Elektron resurs] // 30 may 2014-cü il tarixdə qəbul edilmişdir. – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin hüquqi aktların vahid elektron bazası.
URL: http://e-qanun.az/framework/27934 (son giriş 05.01.2024)
[8] Xəbərlər. [Elektron resurs]
https://migration.gov.az/az/news_detail/14450 (son giriş 06.01.2024)

Aİ üzvü olmayan ölkələrdən seçilmişdir ki, bu da müqayisəli təhlil üçün müxtəlifliyin artmasına xidmət etmişdir. Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflər məhz tədqiq olunan Avropa ölkələrinin təcrübəsi əsasında hazırlanmışdır. Tədqiqat aparılarkən miqrasiya qanunvericiliyinin cari versiyalarının əldə olunması üçün ölkələrin hüquqi aktlarının vahid elektron bazalarından istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Obyekt qismində miqrasiya proseslərinin inzibati-hüquqi nizamlanması zamanı yaranan ictimai münasibətləri, predmet kimi isə Avropa ölkələri və Azərbaycanda miqrasiya proseslərinin inzibati-hüquqi nizamlanması xüsusiyyətləri, həmçinin miqrasiyanın anlayışı, mahiyyəti və məzmununu qeyd edə bilərik.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya tədqiqatının məqsədi miqrasiya sahəsində inzibati-hüquqi tənzim məsələlərini araşdırmaq, Avropa ölkələrinin təcrübəsini öyrənmək və əldə edilən nəticələri Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyinin müddəaları ilə müqayisə etməkdir. Həmçinin, aparılacaq müqayisəli təhlillərin nəticəsində bu sahədə milli qanunvericiliyin daha da təkmilləşdirilməsi və beynəlxalq normalara uyğun olmasını təmin etmək üçün müvafiq təkliflər hazırlamaq da dissertasiya işinin əsas məqsədini təşkil edir. Göstərilən məqsədlərə nail olmaq üçün tədqiqat işində qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- ilk növbədə miqrasiya anlayışını, xüsusiyyətlərini, miqrasiya prosesləri ilə əlaqəli digər hüquqi anlayışları təhlil etmək;
- XX əsrdə Avropada miqrasiya proseslərinin inkişafı tarixini araşdırmaq;
- Azərbaycan Respublikasında Qarabağ münaqişəsi fonunda miqrasiya proseslərinin gedişatını analiz etmək;
- miqrasiya proseslərinin mərhələləri və ümumiyyətlə, ona təsir edən qeyri-hüquqi amillər məsələsini təhlil etmək;
- readmissiya sazişlərinin miqrasiya proseslərinin tənzimlənməsindəki rolunu araşdırmaq və təhlil etmək;
- Azərbaycan Respublikasının Avropa İttifaqı ilə imzaladığı readmissiya sazişini, onun mahiyyətini və bu sahədə tərəflər arasında gələcək üçün mümkün inkişaf istiqamətlərini təhlil

etmək;

- Avropa İttifaqının təşkilat səviyyəsində miqrasiya siyasətini, böhrandan çıxmaq üçün həyata keçirdiyi tədbirləri analiz etmək;
- miqrantların yeni yaşayış yerində cəmiyyətə inteqrasiyasının əhəmiyyətini və təşkili prosesini araşdırmaq;
- qabaqcıl Avropa ölkələrinin miqrasiya sahəsində dövlət idarəetməsi təcrübəsini araşdırmaq və təhlil etmək;
- Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət idarəetməsinin xüsusiyyətlərini təhlil etmək;
- qabaqcıl Avropa ölkələrinin miqrasiya qanunvericiliyini araşdırmaq və təhlil etmək;
- Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyini araşdırmaq və təhlil etmək.

**Tədqiqatın metodları.** Tədqiqat işi yazılarkən ümumhüquqi metodlardan – sistemli təhlil, normativ, elmi və praktik materialların ümumiləşdirilməsi, tarixi yanaşma, xüsusi elmi metodlardan – müqayisəli hüquqşünaslıq və s. metodlardan istifadə edilmişdir. Tədqiqat işində nəzəri və emprik məsələlər, həmçinin informasiyalar uzlaşdırılmış şəkildə təhlil edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işinin aşağıdakı əsas müddəaları publik müdafiəyə təqdim olunur:

1. Nəzəri ədəbiyyatda, müxtəlif hüquqi sənədlərdə, milli normativ-hüquqi aktlarda miqrasiya üçün müxtəlif anlayışlar təsbit edilsə də, hər birinin ümumi əlaməti miqrasiyanı şəxsin yaşayış yerini dəyişdirməsi kimi xarakterizə etməsidir. Bununla əlaqədar, fikrimizcə, miqrasiyaya fiziki şəxsin vətəndaşı olduğu və ya daimi yaşadığı ölkə ərazisində və ya beynəlxalq hüquqla tanınmış dövlət sərhədini keçməklə qanuni əsaslarla yerdəyişməsi şəklində anlayış verilə bilər. Məlumdur ki, Avropada Şengen zonası daxilində nəinki insanların, hətta malların və xidmətlərin də sərbəst hərəkəti təmin olunmaqdadır. Bu baxımdan zonaya daxil olan ölkələrin birindən digərinə hərəkət ümumi sərhəd prosedurlarından kənar daxili yerdəyişmə şəklində baş versə də, nəzəri baxımdan miqrasiya anlayışına daxildir.

2. Miqrasiya prosesləri tək bir elm sahəsi – hüquq tərəfindən

deyil, geniş şəkildə müxtəlif və fərqli sahələr tərəfindən araşdırılır və öyrənilir. İqtisadiyyat, tarix, politologiya və bunların daxilindəki çoxsaylı institutlar miqrasiya prosesləri və onun elementlərinə dair fərqli yanaşmalar irəli sürür və bunları təcrübə edərək doğruluğunu təsdiq etməyə çalışırlar. Müqayisəli təhlil zamanı hər bir halda yalnız hüquqi tənzimləmə məsələləri deyil, miqrasiya proseslərinə təsir göstərən faktorların da tədqiq edilməsi zəruridir.

3. Ədəbiyyatlarda miqrasiya proseslərinin öyrənilməsində irəli sürülən bir sıra nəzəriyyələr müxtəlif faktorların da hüquqi tənzimləmədə əhəmiyyətli rol oynadığını göstərir. Bütün bu nəzəriyyələrin təməlində isə E.C.Ravenştayn tərəfindən əsası qoyulan "miqrasiyanın qanunları" konseptinin dayandığını söyləmək mümkündür. Miqrasiya proseslərinin inzibati-hüquqi tənzimlənməsinin araşdırılması zamanı da adıçəkilən qanunların tədqiqat dairəsinə daxil edilməsi nəzəri aspektdən yanaşmaların fundamental əsasını təşkil etməlidir.

4. Dövlətlər tərəfindən miqrasiya proseslərinin tənzimlənməsi zamanı readmissiya sazişlərinin imzalanması ötən əsrlərdən bu günədək öz əhəmiyyətini qorumaqda davam edir və bunun təzahürü kimi Avropa artıq İttifaq səviyyəsində üzv olmayan ölkələrlə bu sazişi bağlayaraq miqrasiya siyasətinin dayanıqlılığını təmin edir. Azərbaycan Respublikasında da aparılan miqrasiya siyasətinin, qanunvericilik mexanizminin təkmilləşdirilməsində readmissiya sazişləri əhəmiyyətli rol oynaya bilər. Bu baxımdan yaxın gələcəkdə bir sıra dövlətlərlə müvafiq sazişlərin imzalanması zəruridir.

5. Miqrantların sosial-iqtisadi vəziyyətində təhsil çatışmazlığı, aşağı məşğulluq səviyyəsi, sosial təcrid, yoxsulluq və bəzən həddən artıq ixtisaslaşma kimi müxtəlif problemlər inteqrasiya prosesinə pis təsir edir. Təhsildə və əmək bazarında maneələrin olması dolayı yolla sosial təcridetmə riskini artırır və cəmiyyətdə immiqrantlara qarşı mənfi yanaşmanın artmasına səbəb olur. Azərbaycanda daxili miqrasiyada xüsusilə də məcburi köçkünlərlə bağlı 90-cı illərdə bənzər problemlər müşahidə edilsə də, sonrakı illərdə həyata keçirilən siyasətlə tədricən bunlar aradan

qaldırılmışdır.

6. İstənilən sahədə inzibati-hüquqi nizamlanmanın uğurlu olması həm də inzibati idarəetmənin hansı formada təşkil və tətbiq edilməsindən asılıdır. Bu baxımdan miqrasiya proseslərinin idarə edilməsində rol oynayan dövlət orqanlarının səlahiyyətləri və funksiyalarının müəyyənləşdirilməsi, effektiv idarəetmə sisteminə malik xarici ölkələrin təcrübəsindən istifadə edilərək təkmilləşdirilməsi xüsusilə əhəmiyyətlidir.

7. Əksər Avropa ölkələrinin miqrasiya qanunvericiliyi Azərbaycan və digər post-sovet ölkələrindən fərqli olaraq əcnəbilər və vətəndaşlığı olmayan şəxslər arasında ciddi fərq qoymadan hər ikisini alien və ya foreigner – əcnəbi terminінə daxil edir. Yalnız xarici ölkə vətəndaşlarının əcnəbi anlayışı ilə əhatə edilməsi Azərbaycanın miqrasiya qanunvericiliyində dar yanaşmaya üstünlük verildiyini göstərməkdədir.

8. Avropa ölkələrinin miqrasiya qanunvericiliyinə nəzər yetirilən zaman müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsinə qoyulan tələblərin əsas etibarilə şəxsin müraciətində göstərdiyi məqsədin əsaslılığından və daha əvvəl müvəqqəti qaldığı dövrdəki davranışı ilə bağlı olduğunu söyləmək mümkündür. Digər tərəfdən, miqrasiya proseslərinin inzibati-hüquqi nizamlanmasının effektivliyinin artırılmasına yalnız miqrasiya qanunvericiliyinin təkmilləşdirilməsi yolu ilə nail olmaq mümkün deyildir. Burada miqrasiya proseslərindən yaranan ictimai münasibətlərə uyğun olaraq, ailə, cinayət və cinayət-prosessual qanunvericiliklərə bir sıra dəyişikliklərin edilməsi zərurəti ortaya çıxmaqdadır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi onunla izah oluna bilər ki, bu vaxta qədər Azərbaycanın hüquq doktrinasında miqrasiya proseslərinin inzibati-hüquqi nizamlanması məsələsi hər hansı kompleks elmi tədqiqat predmeti olmamışdır.

Nəzəri mənbələrin və empirik materialların kompleks təhlili rəhbər tutularaq yenilik elementi kimi bir çox anlayışlar və nəticələr əsaslandırılır, miqrasiya proseslərinin tənzimlənməsi ilə bağlı mühüm əhəmiyyətə malik olan bir sıra aktual məsələlərin

həllinin yeni qaydaları təklif edilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Bu dissertasiyanın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, irəli sürülmüş nəzəri təkliflər miqrasiya hüququ sahəsinin elmi bazasını zənginləşdirə bilər, qanunvericiliyin təkmilləşdirilməsi zamanı istifadə edilə bilər. Həmçinin, dissertasiya işinin nəticələrindən sonrakı elmi tədqiqatlar aparılarkən istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları müəllifin nəşr olunmuş elmi əsərlərində geniş şərh edilmişdir. Tədqiqatın müəyyən aspektləri xarici ölkələrdə və Azərbaycan Respublikasında keçirilmiş beynəlxalq və respublika səviyyəli elmi-praktiki konfranslarda edilən çıxışlarda yer almışdır.

Dissertasiya işinin materialları əsasında 9 elmi əsər çap olunmuşdur. Bunlardan 1-i xaricdə olmaqla 5-i məqalə, 1-i xaricdə olmaqla 4-ü konfrans materialı formasında işıq üzü görmüşdür.

**Dissertasiya işinin yerinə yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu** tədqiqatın məqsədləri, vəzifələri və metodologiyası ilə şərtlənir. Dissertasiya işi giriş, özündə 7 paraqrafı birləşdirən 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Dissertasiyanın giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılmış, işlənmə dərəcəsi və mənbə bazası barədə məlumat verilmişdir. Tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, işin yazılması zamanı istifadə olunmuş metodlardan bəhs olunmuşdur. Müdafiəyə çıxarılan əsas müddəalar və yeniliklər barədə məlumat verilmiş, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmışdır. Burada həmçinin işin aprobasiyası və tətbiqi, yerinə yetirildiyi təşkilatı adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi göstərilmişdir.

**I fəsil “Miqrasiya anlayışı, tarixi və miqrasiya proseslərinin mərhələləri”** adlanır. 2 paraqrafdan ibarətdir. I fəslin birinci paraqrafında miqrasiya anlayışı araşdırılır, həmçinin, miqrasiya ilə əlaqəli digər anlayışlar, miqrasiyanın əlamətləri, xüsusiyyətləri nəzərdən keçirilir. Anlayış olaraq miqrasiyanı bəzi müəlliflər sadə formada bir coğrafi nöqtədən digərinə hərəkət kimi ifadə edirlər[9]. Əlbəttə bu anlayışa eyni ölkədə bir regiondan digərinə hərəkəti nəzərdə tutan daxili miqrasiya və bir ölkədən başqa bir ölkəyə köçü ifadə edən beynəlxalq miqrasiya daxildir. Beynəlxalq səviyyədə isə miqrasiyaya müxtəlif cür anlayış verirlər. Məsələn, Beynəlxalq Miqrasiya Təşkilatı 2019-cu ildə çap etdirdiyi Miqrasiya lüğətində belə bir tərifdən istifadə etmişdir: *“şəxslərin beynəlxalq sərhəddən keçməklə və ya bir dövlət daxilində mövcud yaşayış yerindən uzağa hərəkəti”*[10]. Ancaq onu da qeyd etməliyik ki, təşkilatın miqrasiyaya verdiyi anlayışlar illər ərzində dəyişikliklərə məruz qalmışdır. Məsələn, 2003-cü ildə adıçəkilən Təşkilat miqrasiyanı *“mənşə yeri xaricinə daimi və ya müvəqqəti yerləşmək istəyən bir şəxs və ya bir qrup şəxsin inzibati və ya siyasi sərhəd boyunca hərəkəti”*[11] adlandırmışdı. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində yalnız əmək miqrasiyasının anlayışı təsbit olunur. Məcəllənin 3.0.9-cu maddəsinə əsasən fiziki şəxsin haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün qanuni əsaslarla bir ölkədən başqa ölkəyə miqrasiya etməklə yaşayış yerini dəyişməsi əmək miqrasiyası adlanır[12]. Əslində, bir çox Avropa dövlətinin də miqrasiya

---

[9] Mavroudi E. Global migration: patterns, processes, and policies / E.Mavroudi, Nagel C.R. – New York: Routledge, – 2016. – 262 p.

[10] International Migration Law. Glossary on Migration / ed. A.Sironi, C.Bauloz, M.Emmanuel. – Geneva: International Organization for Migration (IOM), – 2019. – 248 p. [Electronic resource] https://publications.iom.int/system/files/pdf/iml_34_glossary.pdf (son giriş 02.01.2024)

[11] World Migration: An overview of international migration / International Organization for Migration. – Geneva – 2003. – 396 p. [Electronic resource] https://publications.iom.int/system/files/pdf/wmr_2003_1.pdf (son giriş 02.01.2024)

[12] Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi: [Elektron resurs] // 2 iyul 2013-cü il tarixdə qəbul edilmişdir. – Azərbaycan Respublikasının Ədliyyə

qanunvericiliyində miqrasiyaya anlayış verilmədiyini görürük. Nəzərdən keçirdiyimiz fərqli təriflər çərçivəsində miqrasiya fiziki şəxsin vətəndaşı olduğu və ya daimi yaşadığı ölkə ərazisində və ya beynəlxalq hüquqla tanınmış dövlət sərhədini keçməklə qanuni əsaslarla yerdəyişməsi şəklində ifadə edilə bilər. Həmçinin, bu paraqrafda ölkəmizdə miqrasiya proseslərinin yaxın keçmişi ilə bağlı məsələlərə də toxunulmuşdur. Belə ki, son 30 il ərzində məlum olduğu kimi Azərbaycanda xüsusilə də daxili miqrasiyada aktivlik müşahidə edilmişdir. Bunun başlıca səbəbi kimi 1988-1994-cü illər aralığında baş vermiş Qarabağ müharibəsi çıxış etməkdədir. Altı illik müharibə zamanı həm Qarabağdan, həm də Ermənistan ərazisindən təxminən 1 milyona yaxın şəxs qovularaq qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür[13]. Müstəqilliyin ilk illərində ciddi böhran yaradan bu məsələ sonrakı illərdə qaçqın və məcburi köçkünlər üçün yaşayış məntəqələrinin salınması ilə müvəqqəti həll edilsə də, 27 sentyabr 2020-ci ildə yenidən alovlanan müharibə və sonda imzalanan üçtərəfli Bəyanatla 7 rayon və bir çox yaşayış məntəqələrinin işğaldan azad edilməsi məcburi köçkünlərin yaxın gələcəkdə öz yerlərinə qayıtmalarını təmin etmişdir.

**I fəslin ikinci paraqrafı** "Miqrasiya proseslərinin mərhələləri və ona təsir edən amillər" adlanır. Bildirmək lazımdır ki, bir proses kimi miqrasiya bu və ya digər səbəbdən köç edən şəxsin hədəf olaraq seçdiyi ölkənin sərhədlərinə gəlməsi ilə deyil, çox əvvəldən başlanır. Belə ki, miqrantın öz ölkəsində üzləşdiyi çətinliklər və bunların fonunda miqrasiya etmək qərarını verməsi prosesin ilkin mərhələsini təşkil edir[14]. İkinci mərhələdə köç etmək niyyəti olan şəxsin bu istəyinin arxasında konkret olaraq hansı səbəblərin dayandığı öyrənilir. Bu səbəblərin bir tərəfində əsas etibarilə iş imkanlarının azlığı, təqiblərə məruz qalma, təbii

Nazirliyinin hüquqi aktların vahid elektron bazası.
URL: http://e-qanun.az/framework/46959 (son giriş 05.01.2024)

[13] Abdullahzade C. Hukuki yönleriyle Dağlık Karabağ sorunu / C.Abdullahzade. – Ankara: Adalet Yayınevi, – 2014. – 330 s.

[14] Segal U.A. Immigration worldwide: policies, practices, and trends / U.A.Segal, D.Elliott, N.S.Mayadas. – Oxford; New York: Oxford University Press, – 2010. – 473 p.

fəlakətlər və risk edərək yeni həyata başlama arzusu dayanır. 3-cü mərhələdə artıq yola çıxmış şəxsin öz yaşadığı yeri tərk etməsi və hədəf ölkəyə çatması ilə bağlı məsələlər araşdırılır. Miqrantın vətəndaşı olduğu və ya daimi yaşadığı ölkəni tərk etməsi planlı və ya plansız, könüllü və ya məcburi, hüquqi və ya qeyri-hüquqi, təhlükəsiz və ya təhlükəli, asan və ya çətin formalarda ola bilər. 4-cü mərhələ isə reaksiya adlanır və özündə həm köç edən şəxsin əlində olan resursları, həm də onu qəbul edən dövlətin hazırlıq səviyyəsini birləşdirir. Miqrasiya prosesinin nəhayət beşinci mərhələsi qəbul edən ölkənin həyat tərzi və mədəniyyətinə adaptasiya və bundan doğan nəticələrlə bağlıdır. Bu mərhələdə mədəni uyğunlaşma və assimilyasiya, inteqrasiya, bölünmüş assimilyasiya, yaşayış yeri, təcrid olma və cəmiyyətdən kənarlaşdırılma, rədd olunma kimi elementlər çıxış edir. Bundan yaranan nəticələr bölməsinə isə ictimai siyasət və hüquq, səhiyyə, sosial rifah səviyyəsi, təhsil və təlim, sosial-iqtisadi inkişaf, özəl və ictimai sektor xidmətlərinin inkişafı kimi məsələlər daxildir. Miqrasiya prosesləri tək bir elm sahəsi – hüquq tərəfindən deyil, geniş şəkildə müxtəlif və fərqli sahələr tərəfindən araşdırılır və öyrənilir. İqtisadiyyat, tarix, politologiya, coğrafiya, sosiologiya, fəlsəfə və bunların daxilindəki çoxsaylı institutlar miqrasiya prosesləri və onun elementlərinə dair fərqli yanaşmalar irəli sürür və bunları təcrübə edərək doğruluğunu təsdiq etməyə çalışırlar. Bunlardan əlavə, inzibati-hüquqi tənzimləmənin özü belə adını çəkdiyimiz digər sahələr və onların öyrəndiyi ictimai münasibətlərin də təsirinə uğramaqdadır.

**“Avropa və Azərbaycan arasında miqrasiya sahəsində əməkdaşlığın hüquqi əsasları və miqrasiya proseslərinin idarə edilməsi”** adlanan ikinci fəsil 3 paraqrafdan ibarətdir.

**1-ci paraqraf** “Avropa İttifaqı ilə bağlanan readmissiya sazişi və gələcək perspektivlər” adlanır. Readmissiya sazişləri miqrasiya hüququ sahəsində çox mühüm praktiki əhəmiyyətə malikdir və bu sahədə xüsusilə dövlətlər arasında yaranan münasibətlərin tənzimlənməsində vacib rol oynamaqdadır. Bu müqavilələr razılığa gələn tərəflər arasında, bunlar əsas etibarilə dövlətlərdir, readmissiya ilə əlaqəli öhdəliklər və prosedurlar

yaratmaqla qanunsuz immiqrantların qovulması məsələlərini tənzimləyir. Bu kimi müqavilələrin XIX əsrin əvvəllərində Avropada meydana gəldiyini demək mümkündür. Adıçəkilən dövrdə bütün dünyaya yayılmış və təkcə XIX əsrdə 200-dən çox ikitərəfli readmissiya sazişi imzalanmışdır ki, bunların əksəriyyəti bugünkü Avropa İttifaqı dövlətlərinin payına düşür. Sazişlərin yayılması fasiləsiz şəkildə davam etmişdir[15]. Avropa İttifaqı və Azərbaycan Respublikası arasında 28 fevral 2014-cü ildə imzalanan və həmin ilin 30 may tarixindən qüvvəyə minən Sazişin preambula hissəsində tərəflərin niyyəti və məqsədləri təsbit olunmuşdur. Bu readmissiya sazişi tərəf dövlətlərdə icazəsiz yaşayan şəxslərin geri qaytarılması – readmissiyası ilə bağlı müddəaları tənzimləyir və İttifaqın Azərbaycan Respublikası ilə münasibətlərində xüsusi yerə malikdir. Sazişin başlıca prinsiplər adlanan 2-ci maddəsində tərəflərin bir sıra əhəmiyyətli beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə Sazişin tətbiqi zamanı əməl etmələri tələbi müəyyən edilmişdir. İkinci maddənin son hissəsində sorğu edən dövlətin şəxsin sorğu edilən dövlətə qayıtmasına hər hansı bir maneə yaranacağına inanmağa səbəb yoxdursa, məcburi qayıdışdansa (forced return) könüllü qayıdışa (voluntary return) üstünlük verməli olması müddəası təsbit olunmuşdur [6]. Könüllü qayıdış dedikdə şəxsin iradəsinə əsaslanan, köməkli və ya müstəqil şəkildə mənşə ölkəsi, tranzit və ya üçüncü dövlətə qayıdış başa düşülür. Məcburi qayıdış anlayışı isə inzibati akt və ya məhkəmə qərarı əsasında mənşə ölkəsi, tranzit və ya üçüncü ölkəyə qayıdışı ifadə etməkdədir.

**2-ci paraqraf** Avropada miqrasiya proseslərinin yaratdığı bəzi çətinliklər və miqrantların inteqrasiya problemlərindən bəhs edir. Yaxın Şərqdəki hərbi qarşıdurmaların sayının və miqyasının artmasının Avropaya güclü miqrant axınına səbəb olduğu açıqdır. Nəticədə, Avropa ölkələrindəki miqrasiya qaydaları böyük bir inkişaf prosesi yaşadı və çağdaş dünyanın son illərdəki geosiyasi vəziyyətinə uyğunlaşdırıldı. Bununla birlikdə, bu sahədə bəzi praktik problemlər var və bu problemləri həll etmək üçün həm

[15] Coleman N. European Readmission Policy: Third Country Interests and Refugee Rights / N.Coleman. – Leiden: Martinus Nijhoff Publishers, – 2009. – 396 p.

beynəlxalq müqavilələr, həm də milli qaydalar təkmilləşdirilməlidir. Burada əsasən inteqrasiya məsələlərinə diqqət ayırmaq lazımdır, çünki immiqrant dalğasına məruz qalan Avropa ölkələrində bu aspekt xüsusilə mühüm əhəmiyyət daşıyır. 2014-cü ilin sonunda miqrasiya böhranının ortaya çıxmasından sonra miqrasiya siyasətinin yenilənməsi ilə bağlı ilk siqnallar Avropa İttifaqından gəlməyə başladı. Daha sonra, 1 noyabr 2014-cü il tarixində Jean-Claude Junckerin rəhbərliyi ilə fəaliyyətə başlayan Avropa Komissiyası immiqrasiyanı on vacib məsələ siyahısına daxil etdi. 2015-ci ilin may ayında təklif olunan Gündəlik miqrasiya axınını Aİ üçün həm bir şans, həm də bir problem olaraq xarakterizə etmişdir. Bu Gündəlik üzv dövlətlərin böhran və fövqəladə vəziyyətləri idarə etməsi, eyni zamanda fürsətlərdən faydalanması üçün orta və uzunmüddətli prioritetləri müəyyən etmişdir[16]. Bütün bu problemlərin həlli istiqamətində ciddi addımlar 2015 və 2016-cı illərdə atılmağa başlandı və istər qanuni tənzimləmələr istərsə də praktik işlərlə bağlı son illərdə əhəmiyyətli işlər görüldü. Bu irəliləyişlərin hər birinin özünəməxsus məqsəd və vəzifələri olmasına baxmayaraq, əsas etibarilə miqrantların ümumiyyətlə cəmiyyətə inteqrasiyasını təmin etmək və sosial təcridetmənin qarşısını almaqdır. Üstəlik, bu irəliləyişlər təkcə dövlət səviyyəsində deyil, eyni zamanda bütün Avropa İttifaqı səviyyəsinə böyük dəstək verdi və hətta bir çox qeyri-hökumət təşkilatı da layihələr başlatdı və ya həyata keçirdi.

**3-cü paraqrafda** Avropa ölkələri və Azərbaycanda miqrasiya sahəsində dövlət idarəetməsinin xüsusiyyətləri təhlil edilir. İstənilən sahədə mövcud qanunvericiliyin səmərəli tətbiq edilməsi dövlət idarəetməsinin necə təşkil olunması və həyata keçirilməsindən olduqca asılıdır. Məhz bu səbəbdən miqrasiya proseslərinin inzibati-hüquqi nizamlanması üzrə elmi araşdırma aparılarkən bu sahədə dövlətlərin hansı formada idarəetmə tətbiq etmələri də lazımi elmi nəticələrin üzə çıxarılması baxımından

[16] Kancs D. Long-term Social, Economic and Fiscal Effects of Immigration into the EU: The Role of the Integration Policy (JRC Working Papers in Economics and Finance) / D.Kancs, P.Lecca. – Luxembourg: Publications Office of the European Union, – 2017. – 46 p.

mühümdür. Avropa İttifaqında miqrasiya prosesləri ilə bağlı idarəetməni nəzərdən keçirərkən ilk növbədə Frontex – Avropa Sərhəd və Sahil Təhlükəsizliyi Agentliyi haqqında danışmaq lazımdır. Qurumun əsas vəzifəsi xarici sərhədlərin idarəedilməsi ilə əlaqədar cari və gələcək İttifaq tədbirlərinin tətbiqini asanlaşdırmaq və səmərəliliyini artırmaqdır. O, həmçinin, Aİ üzv dövlətlərinin sərhəd idarəetmə sistemlərini tamamlayır və Aİ vətəndaşlarının azadlığı və təhlükəsizliyinin təmininə yardım edir[17]. Növbəti orqan kimi Avropa Sığınacaq Dəstək Ofisinin (EASO) adını çəkə bilərik. EASO üzv dövlətlərə, xüsusilə də sığınacaq və qəbul sistemlərinin xüsusi təzyiq altında olduğu ölkələrə elmi və texniki dəstək verən bir təcrübə mərkəzi rolunu oynayır. Haqqında araşdırma apardığımız Avropanın aparıcı dövlətlərində miqrasiya məsələləri üzrə dövlət idarəetməsinin əsasən Daxili İşlər və Ədliyyə Nazirlikləri nəzdindəki müxtəlif struktur hissələr tərəfindən həyata keçirildiyini müşahidə edirik. Lakin bəzi dövlətlərdə miqrasiya prosesləri üzrə xüsusi nazirlik fəaliyyət göstərir və bu nazirlik müvafiq sahədə bütün idarəetmə işini həyata keçirməklə yanaşı vahid dövlət siyasətinin formalaşdırılmasını və icrasını təşkil edir. Azərbaycan Respublikasında isə miqrasiya sahəsində dövlət idarəetməsini araşdırdıqda 3 orqanın ön plana çıxdığını görə bilərik. Bunlardan birincisi və ən əsası Nazirlər Kabinetinə daxil olan mərkəzi icra hakimiyyəti orqanı Dövlət Miqrasiya Xidmətidir (DMX). Xidmət AR Prezidentinin "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında" 19 mart 2007-ci il tarixli 560 nömrəli Fərmanına əsasən yaradılmışdır. DMX haqqında Əsasnaməyə əsasən miqrasiya sahəsində dövlət siyasətini, miqrasiya proseslərinin idarə edilməsi və tənzimlənməsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən, hüquq-mühafizə orqanı statusu olan mərkəzi icra hakimiyyəti orqanıdır.

**III fəsil "Avropa ölkələri və Azərbaycanda miqrasiya**

[17] Agencies - Migration and Home Affairs - European Commission. [Electronic resource]
https://ec.europa.eu/home-affairs/what-we-do/agencies_en (son giriş 02.01.2024)

**proseslərinin inzibati-hüquqi nizamlanması”** adlanır.

**1-ci paraqrafda** Avropa ölkələrində miqrasiya proseslərinin inzibati-hüquqi nizamlanmasının xüsusiyyətləri öyrənilir. Dövlətlərin inzibati-hüquqi cəhətdən miqrasiya proseslərini tənzimləməsini araşdırmaq üçün onların qəbul etdikləri müvafiq normativ-hüquqi aktları nəzərdən keçirmək lazımdır. Təbii ki, burada bütün miqrasiya proseslərinin nizamlanmasını araşdırmaq əvəzinə spesifik bir sahə seçərək qanunvericilikdə məhz həmin sahəyə daxil olan məsələlərə diqqət yetirmək lazımdır. Geridə qoyduğumuz XXI əsrin ikinci onilliyində Avropa dövlətləri tərəfindən xüsusilə də müvəqqəti və daimi yaşayış icazələrinin verilməsi məsələsi daim daha çox diqqəti cəlb etmişdir. Üstəlik, bununla bağlı regionda dövlətlərarası əməkdaşlıq nümunələri də az deyil. 2015-ci ildə Avropa ölkələrinin yaşadığı ağır miqrasiya böhranı bu ölkələrin həm milli səviyyədə, həm də regional səviyyədə miqrasiya qanunvericiliklərini inkişaf etdirmələri və qarşılıqlı əməkdaşlığı artırmaları ilə müşayiət olunmuşdur. Araşdırma zamanı nəzərə çarpan əsas məqamlardan biri əksər Avropa ölkələrinin əcnəbilər və vətəndaşlığı olmayan şəxslər arasında elə bir fərq qoymamaları, hər ikisini alien və ya foreigner – əcnəbi termininə daxil etmələri oldu. Digər mühüm məqam isə vahid miqrasiya məcəlləsinin olmaması, bunun əvəzinə ayrı-ayrı qanun səviyyəli normativ-hüquqi aktlardan istifadə olunmasıdır. Bu aktlara xüsusilə də, XXI əsrin ikinci onilliyində miqrasiya proseslərinin inkişafına paralel olaraq çoxlu əlavə və dəyişikliklər edilmişdir. Xüsusilə də, 2015-ci ildə baş verən qaçqın böhranından sonra bu əlavə və dəyişikliklərin nisbətən məhdudlaşdırıcı xarakter daşıdığını söyləmək mümkündür. Digər tərəfdən, müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsinə qoyulan tələblər əsas etibarilə şəxsin müraciətində göstərdiyi məqsədin əsaslılığından və daha əvvəl müvəqqəti qaldığı dövrdəki davranışı ilə bağlıdır.

**2-ci paraqrafda** Azərbaycan Respublikasında miqrasiya proseslərinin inzibati-hüquqi nizamlanması məsələləri təhlil edilir. Cənubi Qafqazda hər zaman köç axınlarının mərkəzlərindən biri olmuş Azərbaycan Respublikasında miqrasiya proseslərinin nizamlanması ilə əlaqədar məsələlər təəssüf ki, hüquqi cəhətdən o

qədər də geniş araşdırılmamışdır. Miqrasiya ilə bağlı elmi tədqiqatlar əsasən onun siyasi və iqtisadi aspektləri ilə məhdudlaşmış, inzibati-hüquqi baxımdan zəruri diqqət yetirilməmişdir. Lakin nəzərə almaq lazımdır ki, Azərbaycanla Avropa arasında artan əməkdaşlıq və inteqrasiya münasibətləri milli miqrasiya qanunvericiliyimizin müasir inkişaf səviyyəsinə çatmış Avropa dövlətlərinin təcrübəsindən faydalanaraq təkmilləşdirilməsinə ehtiyac vardır. Ölkədə 2013-cü ilin 2 iyul tarixinə qədər miqrasiya proseslərinin inzibati-hüquqi nizamlanması pərakəndə xarakter daşımış, ayrı-ayrı normativ-hüquqi aktlar tərəfindən bu funksiya yerinə yetirilmişdir. Lakin qeyd olunan tarixdə Miqrasiya Məcəlləsinin qəbul edilməsi ilə bu pərakəndəlik başa çatmış, həmin normativ-hüquqi aktların demək olar ki, hamısı qüvvədən düşmüşdür. Bununla belə, hazırki şəraitdə Məcəlləyə bəzi dəyişikliklərin edilməsi zərurəti yaranmışdır ki, bu da miqrasiya proseslərinin inzibati-hüquqi nizamlanmasının müasir dövrün tələblərinə uyğunlaşdırılması və müvafiq sahədə qabaqcıl Avropa dövlətlərinin təcrübəsindən istifadə olunması ilə bağlıdır.

Dissertasiya işində elmi yeniliyə və praktiki əhəmiyyətə malik olan kifayət qədər nəticələr alınmışdır. Onların sırasında aşağıdakı nəticələri (təklifləri) xüsusilə qeyd etmək lazımdır:

1. Aİ ilə Azərbaycan arasında bağlanan readmissiya sazişi tərəf dövlətlərdə icazəsiz yaşayan şəxslərin geri qaytarılması – readmissiyası ilə bağlı müddəaları tənzimləyir və İttifaqın Azərbaycan Respublikası ilə münasibətlərində xüsusi yerə malikdir. Ancaq qeyd etməliyik ki, ictimai münasibətlərin sürətlə dəyişdiyi və inkişaf etdiyi bir dövrdə miqrasiya proseslərinin qarşılıqlı tənzimlənməsində yalnız bu müqavilə ilə kifayətlənmək doğru olmazdı. Azərbaycan Respublikasının İttifaqın xüsusilə Şərqi və Cənubi Avropada yerləşən üzv dövlətlərilə readmissiya sazişlərinin imzalanmasına da ehtiyac vardır. Çünki bu regiona daxil olan ölkələrlə Azərbaycan arasında miqrasiya hərəkətləri geniş həcmlidir və buna görə də Aİ səviyyəsindəki ümumi tənzimləmələrdən əlavə xüsusi tənzimləmə də labüddür.

2. Şərq tərəfdaşlığı proqramına daxil olan digər ölkələrlə də icazəsiz yaşayan şəxslərin miqrasiya hüququnun beynəlxalq

qaydalarına uyğun readmissiyası müqavilələrinin imzalanması gələcək üçün mühüm addımlardan biri ola bilər. Digər tərəfdən, Aİ ilə bağlanan readmissiya sazişinə Qaçqınlar və siyasi sığınacaq axtaran şəxslərin readmissiyası ilə bağlı öhdəliklər adlı bölmənin əlavə edilməsini təklif edirik.

3. Miqrasiya sahəsində idarəetmənin effektivliyi və burada vahid qurum rəhbərliyinin təmini, səlahiyyətlərin toqquşması və ziddiyyətlərin baş verməsinin qarşısını alınması, o cümlədən, dövlət büdcəsinə qənaət baxımından DMX-nin Azərbaycan Respublikası Miqrasiya və İnteqrasiya Nazirliyi kimi yenidən təşkil olunmasını ki, bununla da xidmət statusundan nazirliyə keçid miqrasiya sahəsində idarəetmədə funksionallıqdan sahəviliyə keçidi şərtləndirmiş olur, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Miqrasiya və İnteqrasiya Nazirliyinin tabeliyinə verilməsi, DİN strukturunda fəaliyyət göstərən Baş Pasport, Qeydiyyat və Miqrasiya idarəsinin miqrasiya ilə əlaqəli səlahiyyətlərinin adıçəkilən nazirliyə ötürülməsini təklif edirik.

4. Həmçinin, bu sahədə peşəkarlaşmış ixtisaslı kadrların hazırlanması, eyni zamanda, miqrasiya haqqında elmi araşdırmaların inkişaf etdirilməsi üçün AR ali təhsil müəssisələrinin hüquq fakültələrində bakalavr təhsil pilləsinin tədris proqramına “Miqrasiya hüququ” fənninin məhz əsas fənn kimi daxil edilməsi, magistratura pilləsində isə “Miqrasiya hüququ” ixtisasının yaradılması məqsədəmüvafiqdir.

5. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 3-cü maddəsinə “yaşayış icazəsi – müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən və bu Məcəllənin müddəalarına uyğun olaraq əcnəbinin Azərbaycan Respublikası ərazisində müvəqqəti və ya daimi əsaslarla qalmasını təmin edən sənəddir” şəklində aşağıdakı redaksiyada 18-ci bənd əlavə edilsin:

yaşayış icazəsi – müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən və bu Məcəllənin müddəalarına uyğun olaraq əcnəbinin Azərbaycan Respublikası ərazisində müvəqqəti və ya daimi əsaslarla qalmasını təmin edən sənəd.

6. Həmin Məcəllənin 3-cü maddəsinə yüksək səviyyəli

mütəxəssis anlayışını təsbit edən yeni 18-ci bənd əlavə edilməli və mətni aşağıdakı redaksiyada verilməlidir:

yüksək səviyyəli təhsilə (Beynəlxalq Standart Təhsil Təsnifatına uyğun olaraq 5, 6, 7 və ya 8-ci səviyyə təhsil) və ya peşə təcrübəsinə malik, yüksək ixtisaslı peşə üçün zəruri bacarıq və ya keyfiyyət səviyyəsinə (Beynəlxalq Standart Peşə Təsnifatına uyğun olaraq 3 və 4-cü Bacarıq Səviyyələrinə daxil olan) malik olaraq gəlir əldə edən əcnəbi.

7. Hesab edirik ki, yuxarıda DMX əsasında təşkil olunmasını təklif etdiyimiz yeni Miqrasiya və İnteqrasiya Nazirliyinin də müvafiq hallarda nikahın etibarsız hesab edilə bilməsi üçün məhkəməyə müraciət etmək hüququ olmalıdır. Bu məqsədlə, AR Ailə Məcəlləsinin 26-cı maddəsinin 1-ci hissəsinə yeni 9-cu bənd əlavə olunmasını və bəndin mətninin aşağıdakı redaksiyada verilməsini təklif edirik:

əcnəbinin ölkəyə qəbulu, qalması və yaşayış icazəsinin verilməsi qaydalarını pozmaq məqsədi ilə əcnəbi ilə saxta nikah bağlandıqda müvafiq icra hakimiyyəti orqanı.

8. Əcnəbilərlə saxta nikah bağlanması halları ilə mübarizə aparmaq üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin İdarəetmə qaydası əleyhinə olan cinayətlər fəslinə 318-2 maddəsi əlavə olunmalı və maddənin mətni aşağıdakı redaksiyada təsbit edilməlidir:

318-2.1. Azərbaycan Respublikasının vətəndaşı tərəfindən əcnəbilərin ölkəyə qəbulu, qalması və yaşayış icazəsinin verilməsi qaydalarını pozmaq məqsədi ilə əcnəbi ilə saxta nikah bağlama və ya belə nikahı təşkil etmə-

iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

318-2.2. Eyni əməllər:

318-2.2.1. mütəşəkkil dəstə tərəfindən törədildikdə;

318-2.2.2. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi;

318-2.2.3. təkrar törədildikdə -

iki ilədək müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə

məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ildən beş ilədək müddətə azadlıq məhrum etmə ilə cəzalandırılır.

9. Həmçinin, bu cinayət və 318-1-ci maddə üzrə cinayət işlərinin ibtidai istintaqının aparılması üçün yeni yaradılacaq Miqrasiya və İnteqrasiya Nazirliyinin strukturunda İstintaq və Təhqiqat Baş İdarəsinin olmasını məqsədəmüvafiq hesab edirik.

10. Bununla yanaşı, AR Prezidentinin ""Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" 25 avqust 2000-ci il tarixli Fərmanının 3-cü maddəsinə aşağıdakı redaksiyada yeni müddəa əlavə olunmalıdır:

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 318-1 və 318-2-ci maddələrində nəzərdə tutulmuş cinayətlərə dair işlər üzrə - Azərbaycan Respublikasının Miqrasiya və İnteqrasiya Nazirliyi.

11. Qeyd olunanlardan sonra müvafiq qanunvericilik materialları arasında yaranacaq ziddiyyətin qarşısını almaq üçün AR Cinayət-Prosessual Məcəlləsinin 215.3.1-ci maddəsinin mətni aşağıdakı redaksiyada təsbit edilməlidir:

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100—113, 120—125, 126.3, 135—138, 145, 146, 148-1, 149, 154-162, 162-1 (cinayət işi prokurorluqda başlandıqda), 163, 164, 165.2, 165-2, 165-3, 166.2, 167-168, 169-1, 179, 189-1, 190, 191, 192-2, 193-1 (cinayət işi prokurorluqda başlandıqda), 195, 195-1, 195-2, 202 - 203-1, 208, 210—212, 222, 223, 262, 268, 286—288, 290—302, 304, 307—315, 316-2.1, 317, 317-1.2, 321, 323-cü maddələrində nəzərdə tutulmuş cinayətlərə dair işlər üzrə.

**Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Əliyev E.E. Avropa ölkələrinin əsas miqrasiya problemlərinə dair // "Dövlət atributlarından Konstitusiyaya" mövzusunda respublika elmi-praktiki konfransının materialları, – Bakı:

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası, – 12 noyabr 2019, – 394 s.
2. Aliyev E.E. Issues of migration integration in Europe // – Baku: International law and integration problems, – 2020. 01 (59), – 80 s.
3. Əliyev E.E. Avropa İttifaqının və Skandinaviya ölkələrinin miqrasiya proseslərinə hüquqi yanaşması məsələləri // – Bakı: Azərbaycan Hüquq jurnalı, – 2020. 03, – 270 s.
4. Əliyev E.E. Avropa İttifaqı ilə bağlanan readmissiya sazişi və gələcək perspektivlər // “XXI əsrdə İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar” mövzusunda elmi-nəzəri konfransının materialları, – Bakı: Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, – 5 may 2020, – 578 s.
5. Əliyev E.E. Miqrasiya proseslərinin mərhələləri və ona təsir edən amillər // – Bakı: Qanun jurnalı, – 2020. 12 (314), – 159 s.
6. Aliyev E.E. Göç ve ilgili kavramlar // Uluslararası Bilimsel Araştırmalar ve Yenilikçi Çalışmalar Sempozyumu, – Bandırma: Bandırma Onyedi Eylül Üniversitesi, – 22-25 Şubat 2021, – 2021, – 2788 s.
7. Əliyev E.E. Azərbaycanda miqrasiya proseslərinin inzibati-hüquqi nizamlanmasına dair // – Bakı: Qanun jurnalı, – 2021. 03 (317), – 128 s.
8. Əliyev E.E. Avropa İttifaqı və bir sıra Avropa dövlətlərində miqrasiya prosesləri sahəsində dövlət idarəetməsi // “XXI əsrdə İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar” mövzusunda elmi-nəzəri konfransının materialları, – Bakı: Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, – 5 may 2021, – 578 s.
9. Aliyev E.E. Some problems with issuing residence permits in Azerbaijan // – Kiev: Держава і право, – 2021. 36 (89), – 332 s.

Dissertasiyanın müdafiəsi "30" "aprel" 2024-cü il tarixində saat "11:00" Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.44 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1148, Bakı şəhəri, Zahid Xəlilov-33, I korpus, auditoriya 608

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "28" "mart" 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 13.03.2024
Kağızın formatı: A5
Həcm: 41058
Tiraj: 100